

# Oğlum şəhid olub məni tanıdacaqmış

## Bu torpaqların hər yeri Vətəndir, ana...

***Şəhid Seymur Hüseyn oğlu Mehdiyev 1995-ci ildə Tovuz rayonunun Aşağı Öysüzlü kəndində sadə kəndli ailəsində doğulmuşdu. Ailədə iki qardaş – Seymur və Teymur – hər ikisi zəhmətə bağlı ruhda böyümüşdülər. Seymur Tovuz şəhər Mahir Ələkbərov adına tam orta məktəbdə təhsil alıb. Sonra Azərbaycan Texniki Universitetin nəzdində Bakı Nəqliyyat və Rabitə Kollecinə daxil olub və oranı əla qiymətlərlə bitirib. 2017-ci ildə həqiqi hərbi xidmətini Goranboy rayonunun Aşağı Ağca kəndində başa vurub. O, ağır artilleriyada topçu, manqa komandiri, kiçik çavuş olub.***

Seymur II Qarabağ müharibəsi başlamamışdan öncə – dövlət sərhədinin Tovuz istiqamətində 2020-ci ilin iyulunda baş vermiş düşmən hücumu vaxtı cəbhəyə getməyə cəhd etmişdi. O zaman bu mümkün olmasa da, sentyabr ayında qismən hərbi səfərbərlik elan edilən gün hərbi komissarlığa gedir və adını qeyd etdirir. Evə dönəndən sonra valideynlərinə "adımı könüllülər siyahısına yazdırdım"– deyir. Anası Nüşabənin kövrəlib onu bağrına basması, "İmtahandan keçmisən, işə başlayacaqsan. Bəs...?" – sözlərini yarımçıq kəsir. "Öncə Vətən, ana, sonra iş. İş də qaçmır, ali təhsil də, ailə qurmaq da. Üzağlığı ilə bu dəfə qələbə bizim olacaq, inşaallah!" – deyir. Qeyd edim ki, həmin vaxt Seymur Azərbaycan Dəmir Yolları ASC- də işə girmək üçün sənəd vermiş, imtahandan və müsabiqədən uğurla keçmişdi. Taleyin qismətinə baxın, sentyabrın 25-də, Seymur cəbhədə olanda zəng edilir və onu refrijator işinə qəbul etdiklərini, işə başlamalı olduğu haqda xəbər verilir. Oktyabrın 25-də isə Seymur şəhid olur.

Müharibəyə hazırlıq ərəfəsində, sentyabrın 21- də ona könüllü xidmətlə bağlı dəvət gəlir. Anasına "birdən şəhid olsam, ağlamazsan" – deyə halallaşıb yola düşən Seymur anasının "a bala, səni ha tərəfə aparırlar?" – sualına "Hər yer Vətəndir, ana, hara gedəcəyimizin nə fərqi var?" – deyə cavab verir... Beləcə Seymur ürəyinin səsi ilə, böyük həvəs və qələbə eşqi ilə II Qarabağ müharibəsinin iştirakçısı olur.

Səsi öncə Tərtərdən gəlib, sonra Füzulidən. Fürsət tapan kimi zəng edirmiş. Anası Nüşabə Mehdiyeva deyir: "Seymur gedəndən yuxum ərşə çəkilmişdi. Hər zəngində mənə təsəlli verir, elə hey "özünə yaxşı bax, ana", deyirdi. "Qoy, qayıdım gəlim, səni tanımayanlar da "Seymurun anası" deyə tanıyacaq. Burada düşmənin başını əzə-əzə gedirik". Səsimin qəhərləndiyini eşidəndə, pis olurdu, "ana, elə eləmə, qoy səndən arxayın olum. Atama, kiçik qardaşım Teymura salam de. Vaxt yoxdur, hamısı ilə danışım, soruşanlara yaxşı olduğumu çatdır".

Sən demə, balam məni şəhid olub şəhid anası kimi tanıdacaqmış... Atası hələ də özünə gələ bilmir. Deyir, elə bil özü yüyürə-yüyürə şəhid olmağa getdi".

...Seymur Mehdiyevin əsas döyüş yolu Füzulidən keçib. Aşağı Veysəlli, Aşağı Əbdürrəhmanlı və digər kəndlərin azad edilməsində top atəşləri ilə erməniyə qan uddurub. Füzulidə gedən ağır döyüşlərdə xüsusi fəallıq göstərib. Həmin rayonda olanda ailəsi ilə bir neçə dəfə telefon əlaqəsi saxlayıb. Oktyabrın 24-də yenə anasına zəng edib, bu dəfə atası ilə, qardaşı ilə də danışıb. Ağır döyüşlər getdiyini, ordumuzun qəhrəmanlığı, əsgərlərimizin şücaəti sayəsində düşmən hərbi qüvvələrinin pərən-pərən düşdüyünü bildirib. "Biçirik onları, iti qovan kimi qovuruq, qaçırlar qorxaqlar, qaçırlar. Hamısı gedəcək. Murdar ayaqları bir də bu torpağa dəyməyəcək" – deyib Seymur.

Ertəsi gün, oktyabrın 25- də evlərinə gələn acı xəbər onları yerində dondurub. Dünən qəhrəmanlıqdan bəhs edən Seymur mənfur düşmənin murdar hədəfinə tuş gəlib. Cəmi bir gün öncə ümid, inam dolu gələn o şaqraq səs əbədi susub!.. O səsin yiyəsi bir də zəng etməyəcək, bir də danışmayacaq... Çünki o, şəhid adı ilə əbədi inam aşılayan bir ünvana çevrildi.

25 yaşlı tovuzlu balasının ömrünə Füzulidəki döyüş yolunda nöqtə qoyulub... Mehdiyevlərin həyatına– Seymurla vidalaşmağa gələnlərin ucu-bucağı olmayıb. Həmin günlərdə pandemiya ilə bağlı yas məclislərində kütləvi toplaşmağa icazə verilmirdi. Amma Seymuru son mənzilə yola salmağa, onunla vidalaşmağa gələn izdihama nə polis qarışıb, nə icra nümayəndələri.

Oktyabrın 26-da Seymur Tovuzda, canından əziz bildiyi Vətən torpağına tapşırılıb... Şəhidin anası deyir: "Balam məni belə tanıdacaqmış, nə biləydim? Onun məclisinə kimlər gəldi... Tanıdığımız – tanımadığımız ziyalılar, deputatlar, jurnalistlər, qəzet redaktorları... "Oğlunuz fəxrimizdir" – deyə bizə başsağlığı, təskinlik verdilər. Bu bizə qürur verir, amma...

Əlbəttə, hər ana övlad toyu arzulayar, hər ana o toyda qol qaldırıb oynamaq arzulayar... Mən onu körpəlikdə laylalarla, ümidlə böyütmüşdüm. 25 yaşında təzədən layla çaldım, amma vida laylası, ayrılıq laylası. Bütün arzularımız yarımçıq qaldı. Onun mənimlə, mənim də balamla bağlı arzularımız vardı. Vida günü mən də qol qaldırdım, amma balamın sinəmə çəkdiyi dağdan... Təsəllim var, oğlum mənə də, atasına, qardaşına da ölümüylə həm çəkilməz dərd, həm də başucalığı gətirdi. Bir yandan da qürur duyuram ki, oğlum ölümüylə Allahın dərgahında da, Tovuzda da ali məqama yüksəlib. Seymurum Tanrının dərgahına yüksəldi. Ana qəlbim sızlasa da, yeddi yerdən parçalansa da, yenə Vətən sağ olsun – deyirik! Vətəni oğullar qoruyar. Bilirəm ki, Vətən uğrunda şəhid olanlara "ölüb" demirlər. İndi xalqımız qələbəmizin ildönümünü qeyd edir. O zəfərdə mənim oğul balamın da payı var. Tarix yazılanda, bu torpağı qanları, canları bahasına azad edənlərdən söz düşəndə, oğlumun da adı çəkiləcək. Neçə ki, yaşayıram, bu, mənə bəsdir. Seymurumun özü ilə bağlı arzuları yarımçıq qalsa da Vətənlə bağlı arzuları yerinə yetdi"...

Anası deyir ki, Seymur yuxuma gəlmir. Amma qardaşı Teymur onu bir neçə dəfə yuxuda görüb: "Qaqam elə gözəl olub ki, ana. Deyir, qoyma anamı ağlamağa, biz yaxşıyıq, hər şey yaxşıdır".

Qeyd edək ki, şəhid anası Nüşabə Mehdiyeva azman sənətkar, aşıq Mahmud Məmmədovun qızıdır. Atasının ölümündən üç ay sonra oğlunu da əbədi itirən Nüşabə Mehdiyevaya demək istəyirəm ki, bu Vətən, bu xalq, Seymur kimi qəhrəman oğullar və o oğulları yetişdirən ata-analarla ucalır!

Seymur döyüş vaxtı fərqləndiyinə görə dəfələrlə komandirlərdən təşəkkür alıb. Bunu onun silahdaşları danışır. Deyirlər ki, Seymurun məhv etdiyi ermənilərin leşlərindən taya düzəltmək olardı. Ən ağır döyüşlərdə də "yoruldum" demirdi. Gecə yatanda da fikri ancaq düşməni məhv etmək idi. Elə hey "az qalıb, məqsədimizə çatacağıq, ruhdan düşməyək" – deyirdi.

Azərbaycan Prezidentinin sərəncamları ilə Seymur Hüseyn oğlu Mehdiyev döyüşdə göstərdiyi şücaətlərə görə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və digər medallarla mükafatlandırılıb. Ruhu şad olsun.

P.S.: Xatırladaq ki, oktyabrın 1-də ailənin ikinci və sonbeşik övladı, Seymurun kiçik qardaşı Teymur həqiqi hərbi xidmətə – Vətənə borcunu verməyə yollanıb. Allaha əmanət olsun!

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 7 oktyabr.- S.10.